## TƏSVİRİ SƏNƏT

**UOT 73/76**
**DOI: 10.52094/3005-9941.44.2023.0149**

**Zümrüd Həsən qızı Əliyeva**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**müəllim**
**E-mail: zumrudalieva@mail.ru**

# BAKI XALÇAÇILIQ MƏKTƏBİ

**Xülasə:** Xalça sənəti xalqımızın yaradıcılıq irsinin ən parlaq nümunəsidir. Özündə bir neçə mühüm yaradıcılıq fəaliyyətini ehtiva edən xalçaçılıq dekorativ-tətbiqi sənətin elə bir sahəsidir ki, məhz bu incəsənət növündə Azərbaycan xalqının zəngin mənəvi aləmi, dünyagörüşü, yaşam fəlsəfəsi, dini inancları məcmu halda əks olunur. Azərbaycan xalçasının identiklik meyarlarının dürüst müəyyənləşdirilməsində xalq ənənələrinin dirçəlməsi, inkişafı və zənginləşməsində Lətif Kərimovun böyük xidmətləri olmuşdur. Lətif Kərimov xalçaçılıq sənətinin başlıca bədii istiqamətlərini, onların üslub xüsusiyyətlərini müəyyən etmişdir.

Azərbaycan xalçaları öz texniki xüsusiyyətlərinə görə xovlu və xovsuz olurlar. Xovsuz xalçalar öz toxuma üsuluna, kompozisiya quruluşuna, ornament zənginliyinə və rəng koloritinə görə bir-birindən fərqlənən 8 növə bölünür. Bunlar palaz, cecim, ladı, kilim, şəddə, vərni, zili və sumax adlanır.

Toxunma texnikasına görə daha çətin başa gələn xovlu xalçalar simmetrik ilmə vurma üsulu ilə ərsəyə gətirilir. Alim və xalçaçı rəssam Lətif Kərimovun verdiyi təsnifata uyğun olaraq xovlu xalçalar aşağıdakı qruplara bölünür. Bunlar Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz qrupudur. Məqalədə Bakı qrupuna aid həm xovlu həm də xovsuz xalça növləri araşdırılır.

**Açar sözlər:** Bakı, Lətif Kərimov, xalça, xovlu xalça, xovsuz xalça

Xalça sənəti xalqımızın yaradıcılıq irsinin ən parlaq nümunəsidir. Özündə bir neçə mühüm yaradıcılıq fəaliyyətini ehtiva edən xalçaçılıq dekorativ-tətbiqi sənətin elə bir sahəsidir ki, məhz bu incəsənət növündə Azərbaycan xalqının zəngin mənəvi aləmi, dünyagörüşü, yaşam fəlsəfəsi, dini inancları məcmu halda əks olunur. Onlarda milli identikliyimizi müəyyənləşdirən tarixi yaddaş, çoxəsrlik ənənələr öz təcəssümünü tapır.

Azərbaycan xalçaları özündə ölkənin bütün rəngarəng təbiətini – mavi səmanı və yaşıl meşələri, ağ qarlı zirvələri və nar dənələrinin tünd qırmızı parlaqlığını, heyvanın qızılı parıltısını və üzüm salxımlarının bənövşəyi çalarlarını ecazkar bir şəkildə cəmləşdirir. Bütün bunlar heç də poetik metafora deyil, axı xalçaların toxunduğu yun saplar Azərbaycan təbiətinin rənglərinə boyanmış və sözün əsl

mənasında onun şirə və ətirləri ilə hopdurulmuşdur. Bacarıqlı sənətkar əlləri sonsuz düyünlərdə xalqın çoxəsrlik müdrikliyi, onun ümid və sevinci, həyat tərzi və adətləri cəmləşən mükəmməlliyə çatdırılmış kompozisiyalarda bir dünya yaradır. Xalça yalnız utilitar funksiyalar yerinə yetirmirdi. İnsanlar inanırdılar ki, xalçalarda təsvir edilmiş simvol və sakral işarələr evə firavanlıq və xoşbəxtlik gətirir, pis gözlərdən qoruyur və xəstəliklərdən müdafiə edir. Xalça tariximizin salnaməsi olub, onun mənəvi təcəssümünün kvintessensiyasıdır. Azərbaycan Qədim atalar sözündə deyilir: “Xalçam harda, yurdum da orda” (5).

Müxtəlif naxış elementləri və təsvirlərlə zəngin Azərbaycan xalçaları təkcə görünüşü, keyfiyyəti, gözəlliyinə görə yox, həm də orijinallığı, fəlsəfiliyinə görə dünyada məşhurdur. Azərbaycan xalçaları daim xarici ölkələrdə təşkil olunan sərgilərdə yüksək yerlər tutub, qızıl və gümüş medallara layiq görülüb (3).

Azərbaycan xalçasının identiklik meyarlarının dürüst müəyyənləşdirilməsində xalq ənənələrinin dirçəlməsi, inkişafı və zənginləşməsində Lətif Kərimovun böyük xidmətləri olmuşdur. Lətif Kərimov xalçaçılıq sənətinin başlıca bədii istiqamətlərini, onların üslub xüsusiyyətlərini müəyyən etmiş, Azərbaycan xalçalarının dəqiq təsnifatını vermişdir ki, bu da onun “Azərbaycan xalçası” üç cildlik fundamental kitabında öz əksini tapmışdır. Azərbaycan xalçalarını uzun müddət Şərq xalçalarının ümumi kütləsindən ayırmır və ya onları “Qafqaz xalçası” termini ilə müəyyən edirdilər. Lətif Kərimovun elmi araşdırmaları bu inciləri vətənə qaytardı, sübut etdi ki, dünya muzeylərində “Qafqaz xalçaları” adlandırılan xalçaların azı doxsan faizi Azərbaycan xalçalarıdır (1).

Azərbaycan xalçaları öz texniki xüsusiyyətlərinə görə xovlu və xovsuz olurlar. Xovsuz xalçalar toxuculuq sənətinin ən erkən dövrünə təsadüf edir. Azərbaycan xalça sənəti öz yüksək bədii texniki keyfiyyətinə, xovsuz toxunuşunun müxtəlifliyinə görə fərqlənir (3). Xovsuz xalçaların və ümumiyyətlə xalça sənətinin yaranmasının əsasını onların ilk sadə nümunələri olan həsir, çətən, buriya təşkil edir. Xovsuz xalçalar öz toxuma üsuluna, kompozisiya quruluşuna, ornament zənginliyinə və rəng koloritinə görə bir-birindən fərqlənən 8 növə bölünür. Bunlar palaz, cecim, ladı, kilim, şəddə, vərni, zili və sumax adlanır. Sadalanan xalça növləri ilmələrinin sıxlığı, rəng çalarları, toxunuşu və ornamentlərinə görə bir-birindən fərqlənir (3). Məqalədə Bakı qrupuna aid həm xovlu həm də xovsuz xalça nümunələrindən bəhs edilir.

Azərbaycan xalçalarının Bakı qrupu coğrafi baxımdan Xəzər dənizinin qərb sahilini – Bakı-Abşeron bölgəsini əhatə edir (2). Ona görə də Azərbaycan xalçalarının bu qrupu şərti olaraq, Bakı-Abşeron qrupu da adlandırıla bilər. Bakı tarixən dünya ticarət yollarının üstündə yerləşirdi. Bu yol ilə tacirlər və səyyahlar şimaldan-cənuba, şərqdən-qərbə – Qara dəniz sahilindəki ölkələrə, İrana, Çinə, Hindistana və s. yerlərə hərəkət etmişlər. Bakıda memarlıq sənəti, “güləbətin” üslublu zərif tikmələr, nəfis milli geyimlər, əlvan tirmə şallar, soyuq silahlar, “şəbəkə”, “mina”, “qarasavad” üsullu zərgərlik nümunələri ilə yanaşı göz oxşayan

xalçalar da toxunmuşdur (2). Bakı xalça məktəbi öz ənənələri, incə bədii üslublu naxışları, həzin rəng ahəngdarlığı ilə fərqlənmişdir.

Bakı xalça məktəbində toxunan "Palaz", "Kilim", "Zili" xovsuz xalçalarını bəzəyən dolanbac, düz xətt, romb, qarmaqlı və başqa həndəsi formalı elementlər "kilimgülü", ağac, əfsanəvi quş və heyvan motivləri fərdi təsvir üslubları ilə seçilirlər. Bu naxışlar bütövlükdə əbədiyyətlə bağlı hisslər, duyğular dünyasının xalılar üzərində bədii inikasıdır (2). Öz zəngin naxışlar sistemi ilə tanınan və əsasən, Abşeronun Qobu kəndində toxunan "Çiyi palaz" xovsuz xalçası yalnız Bakı toxucuları arasında peşəkarlıqla icra edilmişdir. Alabəzək zolaqlar üzərində toxunan sınıq xətlər, romblar, xaçabənzər və çarpaz "X" elementlər Qobu palazları üçün xarakterikdir. Palaz xovsuz xalçaların ən ibtidai növüdür. Bir qayda olaraq, bu xalçalarda ara sahə haşiyə zolağı ilə əhatə edilmir. Palazlardan Abşeron əhalisi məişətdə geniş istifadə edir. Belə ki, döşənək kimi yer və taxt üstünə, kürsüyə salınan palazlar əvəz olunmazdır. Palaz xovsuz xalçasını üfüqi istiqamətdə toxunan mavi, sürməyi, qırmızı, sarı, yaşıl rəngli enli və ensiz zolaqlar bəzəyir. Bu enli zolaqlar üzərində toxunan bəzək elementləri xalça üzərində toxunmazdan daha öncə neçə min il əvvəl qaya, saxsı, metal məmulatlarda həkk edilmiş, əcdadlarımızın qədim təsəvvürləri ilə bağlı olmuşdur.

Zili – xovsuz xalçaların ən geniş yayılmış növüdür. Bu qrupa daxil olan zililər Azərbaycanda məşhur xalça məntəqələrindən hesab edilən Abşeron yarımadasının Xilə (Əmircan), Suraxanı, Qala, Goradil, Corat, Güney-qışlaq, Saray, Xızı, Xələc, Fındığan və xüsusilə Zarat (Dəvəçi) kimi kənd və qəsəbələrində geniş surətdə toxunmuşdur. Abşeron zililərinin ən üstün cəhəti onların incəliyi, qumaşlığı, həddən artıq nazikliyidir. Başqa sözlə desək, Abşeron zililərini incəlik cəhətdən fabriklərdə toxunan yun parçalarla (hətta bostonla) müqayisə etmək mümkündür. Abşeron zililərini digər xalça məntəqələrinin zililərindən fərqləndirən ikinci bir cəhəti onun Abşerona xas olan naxışsalma üslubudur. Kompozisiya quruluşuna gəlincə, deməliyik ki, vahid bir elementin ara sahədə təkrarı ilə qurulan kompozisiyalar Azərbaycanın bütün xalça məntəqələrində tətbiq edilir. Abşeron yarımadasında müxtəlif görünüşlü zililər istehsal olunmuşdur. Lakin ən çox yayılan xarakterik örnəklərdən olan "Quşlu", "Qarmaqlı", "Sacayağı" və "Butalı" adlandırdığımız dörd zili kompozisiyası mövcuddur ki, hər biri ayrıca sənət əsəri hesab edilə bilər (5).

Əsasən, Xızı bölgəsində toxunan zililər özəl kompozisiya quruluşuna və naxışlara malikdir. Ara sahə böyük damalar şəklində qəfəslərə bölünür və kompozisiya yelənlə əhatə edilir. Zili üzərində həyat ağacı və həndəsi naxışlar büsbütün abstrakt zoomorf təsvirlərlə toxunur. İkibaşlı əfsanəvi quşlardan ibarət motivlərdə ənənəyə görə bir bədən toxunur. Şərq xalqları arasında quş ilahi rəmzi məna daşıyır. Bu motiv mistik dünyanın elçisi, ruhları əbədi həyata qovuşduran rəmzdir. Quş simvolu, həmçinin də türk xalqlarının simvolu sayılır.

Bakı kilimləri isə öz isti koloriti, yununun zərif emalı və toxunuşu ilə seçilir. Üfüqi zolaqlar üzərində toxunan həndəsiləşdirilmiş "kilimgülü" elementi çox

məşhurdur. Bu növ xovsuz xalçadan döşənək və pərdə kimi istifadə edilmişdir. Üzərindəki kiçik məsamələrdən içəri süzülən həzin işıq kilimdən pərdə kimi istifadəni əvəzsiz edirdi. Abşeron məişətində geniş yayılmış çul, xurcun, heybə, duz torbası, xaral, ləmi qabağı, məfrəş kimi xalça məmulatları da cecim və kilim xovsuz xalçalarının texnoloji üslubundadır. Tünd-sumağı, mavi, sürməyi, şəkəri, açıq-qəhvəyi rəng çalarları və incə toxunuş, zərif yun bu əşyaları digər bölgələrə məxsus nümunələrdən fərqləndirir.

Dolğun tarixi köklərə bağlı olan Abşeron xalça naxışları ilə bu məktəbə xas isti rəng ahəngi arasında olan vəhdət toxucuların qədimdən formalaşmış yüksək bədii estetik duyumuna sübutdur. Bakı kilimləri isə öz isti koloriti, yununun zərif emalı və toxunuşu ilə seçilir. Üfüqi zolaqlar üzərində toxunan həndəsiləşdirilmiş "kilimgülü" elementi çox məşhurdur.

Toxunma texnikasına görə daha çətin başa gələn xovlu xalçalar simmetrik ilmə vurma üsulu ilə ərsəyə gətirilir. Bu zaman hər bir cüt əriş sapına bir ilmə vurulur. Belə texnologiya xalça üzərində müxtəlif ölçü və formada olan çoxsaylı ornament təsvirləri yaratmağa imkan verir. Azərbaycan xovlu xalçaları bir kvadrat desimetrə düşən ilmələrin sayı ilə müəyyən edilən çox yüksək sıxlığı ilə seçilir. Toxunduğu bölgədən asılı olaraq bir kvadrat desimetr xalçaya 1600-dən (40x40) 4900-a (70x70) qədər ilmə düşür

Alim və xalçaçı rəssam Lətif Kərimovun verdiyi təsnifata uyğun olaraq xovlu xalçalar aşağıdakı qruplara bölünür. Bunlar Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz qrupudur (4). Bu məktəblərin hər biri isə ayrı-ayrı məntəqələrə bölünür. Abşeron ərazisində formalaşan mövcud ənənə xovsuz xalça nümunələrində olduğu kimi xovlu xalça nümunələrində də yerli flora və inancdan doğan bədii üslubda özünü yaşadır.

Bakı xalça məktəbi Abşeronun Novxanı, Nardaran, Bülbülə, Fatmayı, Mərdəkan, Qala, Xilə (Əmircan), Suraxanı, Görədil və digər kəndləri, həmçinin, Abşerondan kənarda yerləşən Xızı rayonu və ona daxil olan Giləzi, Fındığan və s. toxuculuq məntəqələrini əhatə edir. Bir qayda olaraq, Bakıya məxsus xovlu xalçalar öz toxunduqları məkanın adı ilə "Bakı", "Novxanı", "Suraxanı", "Görədil", "Xilə Əfşan", "Xilə buta", "Fındığan", "Fatmayı" və s. ilə adlandırılır (2). Adları sadalanan bu xalçalarla sənətkarlar sanki qan yaddaşlarında minilliklər boyu qorunub saxlanmış ölüm, əbədi həyat haqqında sokral düşüncələrini, bədii duyumlarını, kamillik anlayışını intuitiv şəkildə naxışa çevrilmiş simvolların vasitəsi ilə ilmələrə düzmüşlər. Bu məktəbə məxsus xalçalarda istifadə olunan bir çox naxışların arxaik inanclarla bağlı olması ilə yanaşı, daha sonralar, İslam dünyagörüşünü əks etdirən elementlər də yaranmışdır. Beləliklə, Bakı və onun ətraflarında toxunan xalçaların üzərindəki hər naxışın öz mənası, bütöv bədii quruluş daxilində isə dərin mahiyyət daşıyan çoxsaylı mürəkkəb anlamları meydana çıxmışdır. Həzin rəng ahəngi, sabit kompozisiya, orijinal naxışların kanonlaşmış incə təsvir forması, sonsuz rəmzlər Bakı xalçalarının bədii xüsusiyyətləridir.

Bakı qrupuna aid Görədil, Novxanı, Suraxanı, Xilə (indiki Əmircan), Nardaran, Bülbülə, Fatmayı, Mərdəkan, Qala kimi Abşeron kəndlərində toxunan "Xilə-buta", "Xilə Əfşan", "Fındığan", "Novxanı", "Suraxanı", "Bakı" və digər nümunələr ilə zəngindir. O, eləcə də yarımadadan kənarda yerləşən Xızı regionunu da əhatə edir. Bakı xalça toxuculuğunun mərkəzləri Gədi, Xilə, Keş, Fındığan və digərləri sayılır. Bu qrup xalçaları yumşaqlığı, orijinal həndəsi ornament və nəbati motivlər (palmet, saplaq və yarpaqlar) ilə uyğunlaşan koloritin intensivliyinə görə seçilir. Bakı xalçaları müxtəlif konfiqurasiyalı medalyonlarla bəzədilir. Xalçalarda çox vaxt qarmaqlı romblardan naxış kimi istifadə olunur. Xalçaların əksəriyyəti toxunduğu yerlərin, qəsəbələrin adlarını daşıyır.. Bu xalçaların rəng qamması solğun çalarları, Abşeron yarımadasının qumlu sahilləri üçün xarakterik olan mavi, sürməyi, şəkəri və sarı rənglərin harmonik uyğunluğu ilə seçilir.

Bakı xalça qrupuna aid olan "Xilə-buta" xalçasının bədii quruluşu "Ləçək-turunc" kompozisiyası əsasında qurulub. Kompozisiya üfüqi istiqamətdə nizamla düzülmüş eyni quruluşlu butalardan təşkil olunub. Xalçanın mərkəzində Bakı xalçaları üçün xarakterik olan saçaqlı göl, ara sahənin dörd küncündə ləçəklər təsvir edilib. Məhz buna görə də bu xalçaları künclü "Xilə-buta" adlandırırlar (6).

Azərbaycanın hər bir xalçaçılıq qrupunda olduğu kimi, Abşeronda da xalçaların öz toxunma, emal üsulları olmuşdur. Əsasən, Qala kəndində əldə edilən gilabı ilə yuyulan xalçaların xovu daha parlaq və yumşaq görünürdü. Bakı ərazisi üçün xarakterik olan boyaq maddələrindən vaxtilə bu ərazidən daşınan zəfəran çiçəyi, biyanotu bitkisi, indiqo kimi boyaq maddələri, eyni zamanda boyamada bərkidici kimi yerli duzdan istifadə edilmişdir. Xalçaların yuyulmasında isə yerli əhali ağ gilabı işlədirdi (2).

Bakının Əmircan kəndində toxunan "Xilə-buta" xalçalarındakı klassik "buta", "Xilə-Əfşan" xalçasına məxsus "sacayaq" elementləri də atəşpərəstliklə bağlı olub, odu, müqəddəs ocağı, mifoloji quşlar nur, işıq mənbəyinin simvolu olub, Tanrı ilə yer arasında əlaqə yaradan ilahi varlığı, müxtəlif üçbucaq formalı asmalar isə göz və nəzər qaytarılması üçün inamlarla əlaqəli yozulan elementlərdəndir.

"Buta" elementinə folklorda çox rast gəlmək olar. O gah nişangah, gah müjdə verən bir atribut kimi təqdim edilir. Lakin təsviri sənətdə "buta"nın öz yozumu var. "Buta" elementinin əsasını nəbati forma təşkil edir. Bu səbəbdən də onun təsviri sənətdə doxsanadək müxtəlif forması mövcuddur. Daha sonralar isə "buta" od, alovla bağlı bir element olmuşdur.

"Novxanı", "Fatmayı", "Bakı", "Suraxanı" xalçalarının bədii strukturlarının əsasını təşkil edən pilləli və ya altıbucaqlı, səkkizbucaqlı "göllər" kainat, fəza cisimləri ilə bağlıdır.

Bakı xalçaları üçün ("Xilə-Əfşan") nəbati elementlər də xarakterikdir. Palmet, tənək yarpaqları, islimi elementləri ənənəyə görə xalça üzərində bərabər yerləşdirilir. Bəzən "islimi" Avropada "arabesk" deyə adlandırılsa da bu naxışın mənası yeni, gənc pöhrə, cücərti deməkdir. Yəni sonsuza doğru davam edə biləcək

cücərtiyə bənzətmədir. Digər çiçəklər və yarpaqlar isə cənnətə olan işarə, cənnətin rəmzi sayılır.

Abşeron xalçalarının digər xalça qruplarından fərqli olaraq öz koloriti, isti rənglərin öz çaları vardır. Mavi, qırmızı, ağ, şəkəri tonlar Abşeronun təbiətindən doğan rənglərlə ahəngdarlıq təşkil edir.

## Ədəbiyyat siyahısı:

1.https://azcarpetmuseum.az/az/latif-karimov-history
2.https://www.academia.edu/42006570/Bak%C4%B1_%C5%9Eirvan_Quba_xal%C3%A7alar%C4%B1_Baku_Shirvan_Guba_carpets
3.https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_xal%C3%A7a%C3%A7%C4%B1l%C4%B1q_m%C9%99kt%C9%99bl%C9%99ri
4.https://icomaz.az/az/XOVLU%20XAL%C3%87ALAR
5.file:///D:/User/Downloads/carpet%20museum%2050.pdf
6.https://azertag.az/xeber/Xalcha_Muzeyinde_Sirt_CHichi_ve_Xile_buta_xalchalari_teqdim_edilib-1166547

**Зумруд Хасан гызы Алиева**

## Бакинская школа ковроткачества

**Резуме:** Ковровое искусство – ярчайший образец творческого наследия нашего народа. Ковроткачество, включающее в себя несколько важных творческих видов деятельности, является областью декоративно-прикладного искусства, отражающей богатый духовный мир, жизненную философию и религиозные верования азербайджанского народа. Лятиф Керимов внес большой вклад в возрождение, развитие и обогащение народных традиций в честном определении критериев самобытности азербайджанского ковра. Лятиф Керимов определил основные художественные направления ковроткачества и их стилистические особенности.

По своим техническим характеристикам азербайджанские ковры бывают ворсовыми и безворсовыми. Безворсовые ковры относятся к самому раннему периоду ткачества. Безворсовые ковры делятся на 8 типов, которые отличаются друг от друга способом плетения, композиционной структурой, богатством орнамента и цвета. Их называют палаз, цецим, лади, килим, шадда, верни, зили и сумах. Перечисленные виды безворсовых ковров отличаются друг от друга плотностью петель, цветовыми оттенками, фактурой и орнаментом.

Ворсовые ковры, которые из-за техники плетения сложнее ткать, изготавливаются симметричным петлевым способом. По классификации,

данной ученым и ковровщиком Лятифом Керимовым, ворсовые ковры делятся на следующие группы. Это Губа, Баку, Ширван, Гянджа, Газах, Карабах, Тебризская группировка. В статье рассматриваются оба типа пледовских и безворсовых ковров, принадлежащих к бакинской группе.

**Ключевые слова:** Баки, Лятиф Керимов, ковер, ковер с ворсом, ковер без ворса.

**Zumrud Hasan gizi Aliyeva**

## Baki school of carpet making

**Summary:** Carpet art is the brightest example of the creative heritage of our people. Carpet-making, which includes several important creative activities, is a field of decorative and applied art that reflects the rich spiritual world, on life philosophy, and religious beliefs of the Azerbaijani people. Latif Karimov made great contributions to the revival, development and enrichment of folk traditions in the honest determination of the identity criteria of the Azerbaijani carpet. Latif Karimov identified the main artistic directions of carpet weaving and their stylistic features.

According to their technical characteristics, Azerbaijani carpets are piled and pile-free. Pile-free carpets date back to the earliest period of weaving. Pile-free carpets are divided into 8 types, which differ from each other according to their weaving method, compositional structure, richness of ornament and color. These are called palaz, cecim, ladi, kilim, shadda, verni, zili and sumakh. The listed types of pile-free carpets differ from each other according to the density of loops, color shades, texture and ornaments.

Pile carpets, which are more difficult to weave due to the weaving technique, are made using a symmetrical looping method. According to the classification given by scientist and carpet artist Latif Karimov, pile carpets are divided into the following groups. These are Guba, Baku, Shirvan, Ganja, Gazakh, Karabakh, Tabriz group. The article examines both types of pled and pile-free carpets belonging to the Baki group.

**Key words:** Baki, Latif Karimov, carpet, carpet with pile, carpet without pile

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.09.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**